UOT: 336.71; 336.72; 347.732;36.77; 368
JEL: G 22

HÜSEYNOV N. H.
Dissertant, Azərbaycan Milli Elmlər Akademiyasının
İqtisadiyyat İnstitutu

HƏYAT SIĞORTASININ DÜNYA TƏCRÜBƏSİ

Xülasə

Tədqiqatın məqsədi: müasir iqtisadi şəraitdə həyat sığortası sahəsində dünya təcrübəsinin əsas xüsusiyyətlərinin tədqiq olunması

Tədqiqatın metodologiyası: müqayisəli və analitik təhlil, sistemli yanaşma

Tədqiqatın nəticələri: həyat sığortasının təkmilləşdirilməsi problemi üzrə qabaqcıl dünya təcrübəsi təhlil olunmuş, eyni zamanda onların ölkəmizdə tətbiqi istiqamətləri müəyyənləşdirilmişdir.

Açar sözlər: *sığorta, özəl sektor, bazar rəqabəti, rəqabətqabiliyyətlilik, rəqabətqabiliyyətlilik göstəricisi, xalq təsərrüfatı, iqtisadi tənzimləmə, iqtisadi resurslar*

GİRİŞ

Həyat sığortasının inkişafı dünyanın müxtəlif dövlətlərində fərqli vaxtlarda yaranmışdır və yerli iqtisadi və sosial amillərin təsiri ilə özünəməxsus formada inkişaf etmişdir. Müxtəlif ölkələrdə bu özünəməxsusluq həyat sığortasının xarakterinə və ona olan tələbə müxtəlif formada təsir edərək həmin ölkələrdə həyat sığortasının iqtisadi inkişafa təsiri imkanlarının fərqli olmasına səbəb olmuşdur. Dövlətlərdə iqtisadi inkişaf səviyyəsi və əhalinin sosial tərkibində baş verən dəyişikliklər də həyat sığortasına özünəməxsus formada təsir etmişdir. Bu baxımdan həyat sığortasının müxtəlif dövlətlərdə inkişaf tarixi və onun iqtisadiyyatında rolunun müəyyənləşdirilməsinin dissertasiya işi üçün əhəmiyyəti böyükdür.

Həyat sığortasının tətbiqi sahəsində beynəlxalq təcrübənin əsas xüsusiyyətləri

Həyat sığortasının yüksək inkişaf etdiyi və uzun tarixi köklərə malik olduğu dövlətlərdən biri Amerika Birləşmiş Ştatlarıdır (ABŞ). Amerikada həyat sığortası müxtəlif tarixi hadisələrin və əhalinin ehtiyaclarının dəyişməsinin təsiri ilə bir neçə inkişaf mərhələlərindən keçmişdir. 1759-cu ildə yaradılmış Presbiterian Din Xadimlərinin Fondu Amerikada yaradılmış ilk həyat sığortası təşkilatı olmuşdur [1]. Bu fondun məqsədi dünyasını dəyişmiş din xadimlərinin ailə üzvlərinin pul vəsaitləri ilə təmin etmək idi. Lakin o dövrdə insan həyatına pul mənasında dəyər kimi baxılması dini inanclara uyğun gəlmədiyindən həyat sığortasının inkişafına mane olurdu. Bununla yanaşı hüquqi baryerlərdə bu sahə üçün maneələrin yaranmasına səbəb olurdu. O dövrdə bir çox ştatlarda qadınların müqavilə bağlamaq hüquqları olmadığından həyat yoldaşları öldükdən sonra onlar üçün ayrılmalı olan vəsaitləri ala bilmirdilər. Eyni zamanda sığortaçılar tərəfindən sığortalananlardan müxtəlif məhdudiyyətlərin tələb edilməsi, ölüm halları bu sahənin inkişafını ləngidirdi. Bu məhdudiyyətlərə səhiyyəsi daha güclü olan regionlara köçmək, mütəmadi olaraq sağlamlıq haqqında arayışların tələb edilməsi və alkoqol qəbulunun qadağan edilməsini aid etmək olar [2]. Sonrakı mərhələdə 1837-ci ildə Amerikada böhranın baş verməsi nəticəsində bankların borc vermək imkanlarının itməsi və yüksək inflyasiyanın müşahidə edilməsi həyat sığortasının inkişafına da əhəmiyyətli təsir etmişdir. XIX əsrdə müxtəlif dövrlərdə bu formada böhranların baş verməsi həyat sığortasının inkişafına mane olmuşdur. O dövrdə sığorta şirkətləri üzərində likvidlik tələblərinin daha yumşaq olması və onların əsasən sığortaçılar tərəfindən ödənilən vəsaitlər əsasında formalaşması imkan verdiki bu təşkilatlar güclü marketinq vasitəsilə sığortaçılara şirkətin hissələrini sataraq onların qazanılmış dividendlərdə paya sahib olmasına şərait yaratsın. Bu onunla əlaqədar idi ki, böhran dövrlərində şirkətin səhmdarları ilə sığortalananların maraqları üst-üstə düşmürdü və likvidlik problemləri yaranmağa başlayırdı. Hissələrin sığortalananlara satılması isə fikir ayrılığının aradan qaldırılmasına imkan yaradırdı. Həyat sığortası təşkilatlarının yaradılması prosedurlarının çox zəif olması və likvidlik tələblərinin aşağı olması, o dövrdə bir çox adamların belə təşkilatlar yara-

daraq möhtəkirlik hesabına pul qazanmaq istəyinin yaranması özbaşnalığın artmasına səbəb olurdu. Bu neqativ proseslərin artması bu sahədə hüquqi nəzarətin həyata keçirilməsini zəruri edirdi. Bunun nəticəsidir ki, 1868-ci ildə Ali Məhkəmə tərəfindən sığorta sektoruna nəzarət ştatlara verildi. Daha sonra isə 1871-ci ildə ştatlar arasında sığorta münasibətlərinin səmərəli idarə edilməsi üçün Milli Sığorta Konvensiyası qəbul edildi. Qeyd edilən qanunların qəbul edilməsi növbəti 10 illikdə həyat sığortası sektorunun inkişafını zəiflətsə də, bu sahəyə müştəri etibarının artmasına səbəb oldu [3].

Eyni zamanda edilən hüquqi dəyişikliklər qadınların həyat sığortasından istifadə etmək istiqamətində olan maneələrin aradan qaldırılmasına səbəb oldu. Sonrakı dövrdə böhranın aradan qalxması və sənaye inkişafının bərpa edilməsi iqtisadi inkişafı sürətləndirməklə həyat sığortasına olan tələbi də artırdı və bu sektorda həyata keçirilən hüquqi islahatlarla birlikdə müşahidə edilən durğunluğun inkişafa çevrilməsinə səbəb oldu. XIX əsrin əvvəllərində sığorta sektorunda rəqabət çox güclü idi və bu sahədə sığortalananlara daha çox dividend ödəmək qabiliyyətində olan təşkilatlar dominantlıq edirdi. Belə bir şəraitdə rəqabətdə uduzduğunu görən Ekulayf Güvən Cəmiyyəti 1868-ci ildən etibarən köhnə sığorta konsepti olan Tontin konseptindən istifadə etməyə başladı (4). Bu konseptə əsasən şirkət tərəfindən qəbul edilən sığrorta ödənişləri iki hissəyə bölündü. Ödənişlərin bir hissəsi ölüm halı baş verdiyi zaman istifadə edilən ənənəvi sığorta ödənişlərinə yönəldilirdi. Digər hissəsi isə investisiya fonduna yönəldilərək müqavilə əsasında sığortalananlara müəyyən olunmuş müddətin sonunda (10-20 il) dividendlərin ödənilməsini nəzərdə tuturdu. Əgər ikinci formada bağlanan müqavilə sahibi müddətin sonuna qədər dünyasını dəyişərdisə bu zaman dividendlər ödənilmirdi. Tontin konseptinin tətbiq edilməyə başlanılması həyat sığortası sənayesində inqilab kimi qəbul edilir. O dövrdə orta təbəqənin yaranması və onların daha səmərəli investisiya imkanlarını axtarması həyat sığortasına olan tələbi artırdı.

Tontin sistemi vasitəsilə toplanmış vəsaitləri sığortaçılar digər təşkilatların və bankların səhmlərini almasına yönəltməyə başladılar. Eyni zamanda sığortaçılar banklar və təşkilatlar ilə birliklərdə iştirak edərək ucuz qiymətə dövlət qiymətli kağızlarının alınmasında da yaxından iştirak etməyə başladılar. Sığortaçıların vasitəçi olaraq rolunun artması nəticəsində onların gəlirlərinin artması daha sonrakı mərhələdə onların bankların idarə heyətlərində vəzifə tutmasına və siyasətə qoşulmasına səbəb oldu (5). Bütün bu proseslərdən sonra XX əsrin başlanğıcında həyat sığortası şirkətləri ən böyük maliyyə institutlarına çevrildi [4]. Bunun nəticəsində 1920-ci illərdə böyük dünya böhranından öncə həyat sığortası satışları ən yüksək səviyyəsinə çataraq 20 milyard dollara çatdı. Buda həmin illərdə istehsalın, gəlirlərin və bununla əlaqədar olaraq sığorta tələbinin artması ilə əlaqədar idi. Eyni zamanda həmin dövrdə demoqrafiyada baş verən dəyişikliklər, urbanizasiyanın sürətlənməsi, orta yaş həddinin artması kimi amillərdə sığortanın inkişafına təsir etmişdir. Lakin bunun ardından 1929-cu ildə maliyyə bazarlarının çökməsi sığortaçıların maliyyə çətinlikləri ilə qarşılaşmasına səbəb oldu. 30-cu illərdə davam edən böhranın depressiyaya çevrilməsi maliyyə sektorunda fəaliyyət göstərən digər təşkilatlarla müqayisədə sığorta təşkilatlarına daha az ziyan verdivurdu. Bazarda fəaliyyət göstərən sığorta təşkilatlarının cəmi 5.7%-i öz öhdəliklərini yerinə yetirə bilmədi. Sığortaçılara dəyən ən böyük zərər isə faiz dərəcələrinin aşağı düşməsi oldu ki, hansı ki, onların gəlirliliyini azaldaraq öhdəliklərini yerinə yetirməkdə çətinlik yaratdı. Digər tərəfdən isə böhran sığortalananların da maliyyə vəziyyətini çətinləşdirərək sığorta ödənişlərinin ödənilməsində çətinlik yaratdı. Sonrakı mərhələdə İkinci Dünya Müharibəsinin başlanması ilə Amerika iqtisadiyyatının digər ölkələri istehsal məhsulları ilə təmin etməsi fonunda iqtisadi yüksəliş baş verdi və böhran aradan qalxmağa başladı [5]. Müharibədən sonra isə iqtisadi inkişafın sürətlənməsi və demoqrafik strukturda baş verən müsbət dəyişikliklərin təsiri ilə həyat sığortası yenidən özünün inkişaf mərhələsinə qədəm qoymuşdur. Həyat sığortası sektorunun inkişafı nəticəsində 1980-ci illərdə Amerikada universal həyat sığortası təklif edilməyə başladı hansı ki, həm ölüm halı üçün sığortanı, həmdə faiz dərəcələrinə uyğun olaraq dividendlərin ödənilməsini eyni müqavilə də nəzərdə tuturdu. Bu da sözsüz

ki, həyat sığortası məhsullarının cəlbediciliyini artırdı. Eyni zamanda bu dövrdə neoliberal baxışların hakim mövqeyə keçməsi və iqtisadi liberalizmin inkişafı iqtisadi inkişafı sürətləndirməklə sığorta sektorununda inkişafına yol açdı və XXI əsrin başlanğıcında həyat sığortası investisiyaların yatırılması üçün əlverişli maliyyə instrumenti kimi öz aktuallığını qoruyurdu. 2001-ci ildə maliyyə bazarlarında böhranın baş verməsi sığortanın inkişafını ləngitsə də 2004-cü ildən etibarən yenidən bu sektor inkişaf etməyə başlamışdır.

Həyat sığortası sektoru hal-hazırda da Amerika iqtisadiyyatında böyük əhəmiyyətə malikdir. Belə ki, bu sektorun iqtisadiyyatda ən böyük paya sahib olduğu illərdən sayılan 2012-ci ildə aktivləri 5.5 trilyon ABŞ dolları həcmində olmuşdur ki, bu da o dövrdə bank sektorunda mövcud olan aktivlərin 30%-dən çox idi [6]. Eyni zamanda bu sektor ev təsərrüfatlarının sərbəst vəsaitlərinin maliyyə bazarlarına yatırılmasında da böyük rola malik olduğundan böyük həcmdə sərbəst pul vəsaitlərini özündə toplamışdır. Belə ki, 2012-ci ildə həyat sığortası təşkilatları xarici və korporativ qiymətli kağızların 18.4%-ni, ipoteka bazarında mövcud olan qiymətli kağızların isə 12%-ni özündə cəmləmişdir [7]. Amerika iqtisadiyyatı üçün həyat sığortası özünün uzunmüddətli dövrü əhatə etməsi və riskləri udmaq qabiliyyəti ilə iqtisadi sabitliyin təmin edilməsində böyük rola malikdir. 2008-ci ildə baş vermiş böhran bir daha göstərdi ki, iqtisadi şoklar daha çox iqtisadiyyatdan bu sektora ötürülür nəinki, bu sektordan iqtisadiyyata. Buna görə də deyə bilərik ki, həyat sığortası daha çox Amerika iqtisadiyyatının sabitliyinə xidmət edir və özündə iqtisadiyyata mənfi təsir edəcək riskləri daşımır. Hal-hazırda mövcud olan iqtisadi mühitdə dünya böhranının təsirlərinin tam aradan qalxmaması və aşağı faiz dərəcələrinin mövcudluğu bu sektorun inkişafına mənfi təsir etsə də sektor öz sabitliyini qorumaqdadır [6].

Müasir Həyat sığortası münasibətlərinin ilk formalaşdığı ölkə Böyük Britaniya sayılır və bu münasibətlərin formalaşması XVI əsrə təsadüf edir. Belə ki, həmin dövrdə Böyük Britaniyada dəfn xərclərinin ödənilməsi üçün bir il müddəti əhatə edən sığorta müqavilələri bağlanırdı. İlk həyat sığortası müqaviləsi 1583-cü ildə imzalanmışdır [8]. O dövrdə həyat sığortası şirkətləri olmadığından həyat sığortası müqavilələri fərdlər arasında bağlanırdı və buna görə də riskli hesab edilirdi. Bu, eyni zamanda insanların hansısa varlı adamın ölümü baş verdikdə gəlir əldə etmək vasitəsinə çevrildi və varlı adamın ölmək ehtimalını əsas götürərək müqavilələr bağlanmağa başlandı. Bu da həmin dövrdə bu sahədə hüquqi bazanın olmamasından irəli gəlirdi. Həyat sığortasından bu formada gəlir əldə edilməsi üçün istifadə edilməsi XVIII əsrin sonlarına qədər davam etdi. Hüquqi bazada olan bu boşluqları aradan qaldırmaq üçün qəbul edilmiş ilk hüquqi sənəd "Həyat Sığortası Aktı" olmuşdur. Bu akt 1774-cü ildə Britaniya Parlamenti tərəfindən qəbul edilmişdir [9]. Bu akta həyat sığortası münasibətlərinin legitim maliyyə marağı əsasında qurulmasını təmin edirdi. Daha sonra bu akt əsasında İrlandiyada da 1866-cı ildə həyat sığortası aktı qəbul edildi və hal-hazıradək qüvvədədir. XVIII əsrdə həyat sığortası haqqında hüquqi sənədin qəbul edilməsi eyni zamanda o dövrdə Britaniyada kilsə tərəfindən insan ölümü haqqında statistikanın nəşr edilməsi ilə əlaqədar olmuşdur. Bu statistikada öz əksini tapmış yüksək insan ölümünün azaldılması məqsədilə həyat sığortası inkişaf etdirilmişdir. Lakin ilk dövrlərdə hamı üçün eyni şərtlə sığortanın təklif edilməsi bu sistemin səmərəli inkişaf etməsinə imkan verməmişdir [7].

Nəticədə sığorta şirkətləri bu məsələni müxtəlif sığorta haqqları tətbiq etməklə həll etmişlər. Yaradılmış yeni sığorta sisteminə əsasən tələb edilən sığorta məbləğinin həcmi sığorta götürənin ölüm riskinin səviyyəsi ilə adekvatlıq təşkil edirdi. Yəni yaşı daha çox olan adamlar üçün sığorta premiumu daha yüksək, yaşı az olan adamlar üçün isə daha az idi. Bu təcrübə hal-hazırda da bütün dünya ölkələrində istifadə edilməkdədir. Eyni zamanda Britaniyada həyat sığortasının ilk formaları üçün xarakterik cəhətlərdən biri də ondan ibarət idi ki, əgər sığorta götürən bir il müddəti üçün sığorta götürürdüsə o zaman əgər o həmin ildə ölməzsə onun ödədiyi vəsait geri qaytarılmırdı, çünki şirkət həmin dövrdə ölən digər sığorta götürənin pulunu ödəməli idi. Daha sonra həyat sığortası üçün müddət uzadıldı və əhali müəyyən edilmiş dövr üçün əvvəlcədən pul ödəməklə və ya hər il üçün sığorta müqaviləsini yeniləməklə sığorta əldə edə

bilirdilər. Əgər sığorta birinci formada götürülmüşdürsə ölüm hadisəsi həmin dövrdə baş verdikdə xərc qarşılanırdı, əgər ikinci formada götürülsəydi hər il müqavilə imzalandıqda ödənilən məbləğ yaş artdığından artırılırdı. XIX əsrin sonlarına doğru Böyük Britaniyada hal-hazırda istifadə edilən adi ianə müqavilələri yaranmağa başladı və əhali pul vəsaitlərini yığmaq üçün sığorta müqavilələri bağlamağa başladı. Zamanla insanların təqaüdə çıxdıqdan sonra həyat sığortasına ehtiyacları artdı. Bu ehtiyacın qarşılanması məqsədilə 1956-cı ildə islahatlar keçirildi və təqaüdlərin ödənilməsi məqsədilə bağlanan müqavilələr üzərində vergi güzəştləri tətbiq edilməyə başladı. 1960-cı illərdə isə tək ödənişli sığorta müqavilələri məşhurlaşmağa başladı. Nəticədə böyük həcmdə pul vəsaitləri bank sektorundan sığorta sektoruna axmağa başladı. Ona görə ki, həyat sığortasına yatırılan vəsaitlər həm daha çox dividend qazandırırdı, həm də daha az risk daşıyırdı [8].

Britaniyanın həyat sığortası bazarı Avropada ən inkişaf etmiş bazar sayılır. Bu sektorun inkişafına bir sıra amillər təsir etmişdir. İlk olaraq liberal idarəetmə sistemini göstərmək olar. Hələ XVIII əsrdə Britaniya hökuməti həyat sığortası sektorunun iqtisadiyyata verə biləcəyi faydanın böyük olduğunu bilirdi və bu məqsədlə hökumət həyat sığortası şirkətlərinə inkişaf etmək üçün azadlıq vermiş və bizneslərini genişləndirmək imkanı yaratmışdır.

Həyat sığortası şirkətləri əldə etdikləri pul vəsaitlərini səmərəli şəkildə yerləşdirərək həm iqtisadiyyatın ümumi inkişafına, həm də əhalinin sosial ehtiyaclarının qarşılanmasına şərait yaratmışdır. Digər tərəfdən Britaniya hökuməti bu sığorta şirkətləri və sığorta xidmətlərindən istifadə edən vətəndaşlar üçün vergi güzəştləri tətbiq edərək həyat sığortası bazarının inkişafını dəstəkləyirdi. Həyat sığortası sektorunun inkişafına müsbət təsir edən digər amil isə Britaniyada bu sektordakı şirkətlərin məşhurluğu ilə bağlı idi. Bu şirkətlərin Avropada məşhurlaşmağında həm onların qədim tarixə malik olması, həm də ixtisaslı kadrların olması əsas rol oynamışdır [9]. Bu baxımdan əhali tərəfindən etibar qazanan bu şirkətlər pul vəsaitlərinin yatırılması üçün ən etibarlı maliyyə institutuna çevrilmişdir. O dövrdə Britaniyada sığorta risklərinin hesablanması üzrə ixtisaslaşmış aktuarilər fəaliyyət göstərirdi hansılar ki, sığorta sektorunun inkişafında böyük paya sahib idilər. Aktuarilər çox mühafizəkar idilər və bu peşənin yüksək inkişafı sığorta sistemini risklərdən qoruyurdu. Aktuarilər eyni zamanda sığorta sahəsində innovasiyaların həyata keçirilməsində və yeni daha cəlbedici xidmətlərin yaradılmasında böyük paya sahib idilər. Britaniyadakı həyat sığortası şirkətlərinin zəngin təcrübəyə və professional mütəxəssislərə sahib olması əhali arasında etibar qazanmasına səbəb olmuşdur və geniş həcmdə pul vəsaitlərini özünə cəlb edə bilmişdi. Bütün bu qeyd edilən amillərlə yanaşı həyat sığortası sisteminin inkişafı Britaniyanın yüksək sürətli inkişafı və iqtisadiyyatının genişlənməsi ilə əlaqədar idi. Həyat sığortası sektorunun əhalinin gəlirlərindən asılılığı yüksək iqtisadi inkişaf şəraitində onun inkişafına səbəb olurdu. Sənaye inqilabı nəticəsində əhalinin gəlirlərinin kəskin artımı həyat sığortası sektorunun da sürətli inkişafına gətirib çıxarmışdır.

Müasir dövrümüzdə də Britaniya iqtisadiyyatında həyat sığortası əhəmiyyətli paya sahibdir. Hər il milyardlarla vəsait həyat sığortası sektoruna yatırılır və investorları dividendlərlə təmin edir. Britaniyada 1990-2000-ci illər arasında bu sektora edilmiş investisiyalar 2.6 dəfə artaraq 300 milyard funt sterlinqə çatmışdır. Bundan sonra isə bu sektora yatırılan investisiyalar azalmağa başlamış və 2007-ci ildən başlanan dünya böhranının təsiri ilə daha da azalaraq 2010-cu ildə 140 milyard funt sterlinq səviyyəsinə düşmüşdür. Buna baxmayaraq son illər həyat sığortasının investisiyalarda payı artmaqdadır. 2014-cü ilin göstəricilərinə əsasən Britaniyada əhalinin 28.6 milyon həyat sığortası müqaviləsi mövcud olmuşdur. Digər ölkələrdə olduğu kimi Britaniyada da iqtisadi böhranla əlaqədar həyat sığortasına tələbat azalsa da, bu sektor böhrandan az əziyyət çəkən sektor olaraq əhalinin diqqətini cəlb etməkdədir. Bu onunla əlaqədardır ki, həyat sığortası sektoru özünün davamlı inkişafını qorumaqdadır [10].

Həyat sığortasının dünya təcrübəsini təhlil edərkən bu sahədə qədim tarixi köklərə malik olan Hindistanı qeyd etmək vacibdir. Hindistanda həyat sığortasının tarixi Manu əlyazmalarına qədər gedib çıxır. Bu yazılarda baş verə biləcək

yanğın, sel və epidemiya kimi hadisələrin təsirlərinin aradan qaldırılması üçün resursların toplanmasından bəhs edilirdi. Daha sonralar isə Hindistanda tacirlər arasında dəniz yükdaşımaları nəticəsində dəyə biləcək zərərin qarşılanması üçün razılaşmalar əldə edilirdi. Lakin müasir həyat sığortası sistemində mövcud olan həyat sığortası münasibətlərinə oxşar münasibətlər Hindistanda daha çox xarici dövlətlər xüsusilə İngiltərənin təsiri ilə formalaşmışdır. Hindistanda həyat sığortası biznesi 1818-ci ildə Oriental Həyat Sığortası təşkilatının yaradılması ilə başlamışdır [10]. Bu təşkilat uzumüddətli olmamış və 1834-cü ildə bağlandıqdan sonra həyat sığortası əməliyyatları Madrasın prezidentliyi dövründə yaradılmış sığorta təşkilatı tərəfindən həyata keçirilmişdir. 1870-ci ildə Britan sığorta aktı qəbul edildikdən sonra Bombey, Oriental və Hindistan İmperiyası adlı yerli təşkilatlar həyat sığortası xidmətlərini həyata keçirməyə başlamışdır [11]. Lakin bu təşkilatlar əsasən Hindistanda yaşayan ingilis əhali üçün fəaliyyət göstərirdilər. Daha sonralar yerli əhali üçün də xidmətlərini təklif etsələr də onlar ingilis əhali ilə müqayisə də daha çox sığorta ödənişi etməli idilər. Bu şirkətlərlə yanaşı o dövrdə Hindistanda Albert Həyat Sığortası, Royal Sığorta, Liverpul və London Qlob kimi Britaniya təşkilatları da fəaliyyət göstərirdi. Bu şirkətlər tərəfindən güclü rəqabətə məruz qalan yerli təşkilatlar inkişaf etməkdə çətinlik çəkirdilər. XX əsrin əvvəllərindən Hindistan hökuməti sığorta sektoruna nəzarəti gücləndirmək məqsədilə sığorta təşkilatlarının gəlirlərini nəşr etməyə başladı. Daha sonra bu sahədə idarəetməni gücləndirmək məqsədilə 1912-ci ildə Həyat Sığortası Təşkilatları aktı qəbul edildi [12]. Bu aktın qəbul edilməsi həyat sığortası sistemini daha da təkmilləşdirərək onun hüquqi bazasını gücləndirdi və bu sektorda müşahidə edilən volatilliyə son qoydu. Bundan sonra hökumət bu sektorun gəlirliliyini müəyyən edə bilmək və onun inkişaf istiqamətini müəyyənləşdirə bilmək imkanı əldə etdi.

Sığorta sektorunun sürətli inkişafı daha sonra, 1938-ci ildə bu aktın daha da təkmilləşdirilmiş Sığorta Aktı ilə əvəz edilməsi ilə bağlı oldu. Bu akt təkcə həyat sığortası deyil eyni zamanda ümumi sığorta sektorunu da əhatə edən hüquqi bazanı özündə əks etdirirdi. Qəbul edilmiş bu aktlar eyni zamanda yerli və xarici təşkilatların sığorta sektorunda payının müəyyənləşdirilməsi və yerli təşkilatların inkişafına dəstək verilməsi baxımından da əhəmiyyətli idi. Sığorta aktı eyni zamanda Hindistanda sığorta sahəsində fundamental dəyişikliklərin baş verməsinə səbəb oldu. Belə ki, maliyyə nazirliyi tərkibində sığorta sektoru yaradıldı hansı sektor üzərində səmərəli dövlət nəzarətinin keçirilməsinə xidmət edirdi. Lakin həyata keçirilmiş bu islahatlar da həyat sığortası sektorunda müşahidə edilən ədalətsiz rəqabət və qanun pozuntularının qarşısını ala bilmədi. Buna görə də 1950-ci ildə həyat sığortası agentlikləri ləğv edildi və sığorta sektorunun milliləşdirilməsi istiqamətində işlər görülməyə başladı. Milliləşdirilmə prosesi 1956-cı ildə bitdi və dövlət nəzarətində olan Həyat Sığortası Korporasiyası yaradıldı [13]. Bu korporasiya özündə 154 yerli, 16 xarici sığorta təşkilatını və 75 sığorta cəmiyyətini birləşdirməklə ümumilikdə 245 təşkilata nəzarət edirdi. Dövlətin sığorta sektoru üzərində nəzarəti ələ keçirməsi özbaşnalığın aradan qalxmasına imkan versə də bu sektor Həyat Sığortası Korporasiyasının monopoliyasına çevrildi və bu monopoliya 1990-cı illərə qədər davam etdi. Korporasiyanın əsas məqsədlərindən biri həyat sığortasının ölkənin regionlarında yayılmasını təmin etmək idi. Həyat sığortası sektoru milliləşənə qədər həyat sığortası demək olar ki, ancaq şəhərlərdə mövcud idi.

Daha aşağı həyat səviyyəsinə malik olan və səhiyyənin zəif inkişaf etdiyi regionlarda isə həyat sığortasına tələb daha böyük olsa da bu sahə inkişaf etməmişdi. Buna görə də dövlət sektor milliləşdiriləndən sonra bu regionlarda sığortanın inkişaf etdirilməsinə çalışırdı. Belə ki, korporasiyanın regionlarda sığortanın inkişaf etdirilməsi istiqamətində həyata keçirdiyi tədbirlər nəticəsində artıq 1998-ci ildə yeni bağlanmış müqavilələrin 51%-i regionların payına düşürdü. Eyni zamanda sığorta agentlərinin və korporasiyanın filiallarının yarıya qədəri regionlarda yayılmışdı [14].

Həyat sığortasının təkmilləşdirilməsinin əsas istiqamətləri

1990-cı illərin əvvələrindən etibarən Hindistan iqtisadiyyatında əsaslı islahatlara və azad iqtisadi sistemin yaradılmasına başlanılmışdır.

İqtisadiyyatda aparılan bu islahatlar eyni zamanda həyat sığortası sahəsinə də əhəmiyyətli təsir etmişdir. Həyat sığortası sektorunda islahatların həyata keçirilməsi məqsədilə Malhotra Komitəsi yaradıldı və bu komitəyə islahatların həyata keçirilməsi üçün təkliflərin hazırlanması tapşırığı verildi. Çox çəkmədən 1994-cü ildə təkliflər hökumətə təqdim edildi və bu təkliflər bir çox digər məqamları əhatə etsə də qeyd olunan əsas məsələ bu sektorun liberallaşdırılması və özəl şirkətlərin bazara daxil olmasına icazə verilməsi idi. Eyni zamanda xarici şirkətlərin də bazara daxil olaraq yerli şirkətlərlə birgə müəssisə formasında fəaliyyət göstərməsi təklifi də irəli sürülmüşdür. Bunun ardınca isə 1999-cu ildə sığorta sektorunun inkişafını təmin etmək və bu sektora nəzarəti həyata keçirmək məqsədilə Sığortanın İnkişafı və İdarə edilməsi Təşkilatı yaradıldı hansı ki, dövlətdən asılı deyildi və sərbəst qərar vermək səlahiyyətinə malik idi [14]. Bu təşkilatın əsas məqsədləri sırasına sığorta sektorunda azad rəqabətin təşviq edilməsi, əhali üçün daha aşağı qiymətlərlə sığorta xidmətlərinin təklifi, seçim imkanlarının genişləndirilməsi və sığorta sektorunda maliyyə sabitliyinin təmin edilməsi daxil idi. Lakin, təşkilatın əsas məqsədi münasib qiymət səviyyəsinin qorunması, şəffaflığın təmin edilməsi, sığorta kompensasiyalarının vaxtında ödənilməsi və sığorta təşkilatlarının ödəmə qabiliyyətinin qorunması vasitəsilə müştərilərin maraqlarının qorunması idi. Bu təşkilat sığorta şirkətlərinin qeydiyyatı, biznesin fəaliyyəti və müştərilərin maraqlarının qorunması məsələlərini hüquqi baxımdan idarə edirdi. 2000-ci ildən etibarən Hindistanda sığorta bazarı şirkətlərin qeydiyyatı üçün açıq elan edildi. Bazara xarici şirkətlərin daxil olmasına icazə verilsə də, onların şirkətlərdə payı üçün 26% limit müəyyənləşdirilmişdi. Limitin müəyyənləşdirilməsi dünya bazarına yeni açılan Hindistan bazarı üçün əhəmiyyətli idi.

Ona görə ki, daha sürətli inkişaf etmiş və təcrübəyə malik olan xarici şirkətlər daxili bazarda yerli şirkətlərə rəqabətdə qalib gələrək onları bazardan çıxarda bilərdilər. Özəl şirkətlərə bazara daxil olmaq imkanlarının verilməsi nəticəsində 2001-ci ildə hər beş həyat sığortası təşkilatından biri dövlətə, qalanı isə özəl sektora məxsus idi. 2001-ci ildə Hindistanda 5 özəl sığorta təşkilatı fəaliyyət göstərdiyi halda bu rəqəm 2011-ci ildə 23-ə qədər artmış və 2014-cü ildə 24-ə çatmışdır (86). Yeni özəl şirkətlərin bazara daxil olması Həyat Sığortası Korporasiyasının bazarda sahib olduğu 100%-lik payının azalaraq 69.8%-ə çatmasına səbəb olmuşdur. Lakin son iki ildə korporasiyanın həyat sığortası bazarında payı artaraq 2014-cü ildə 75.5%, 2015-ci ildə isə 73% təşkil etmişdir [11]. Həyat sığortasının sürətli inkişafı və özəl şirkətlərin azad rəqabət şəraitində öz xidmət və məhsullarını təşviq etməsi nəticəsində ölkədə mövcud olan həyat sığortası ofislərinin sayı sürətlə artmışdır. Nəticədə 2002-ci ildə Hindistanda 2199 həyat sığortası ofisi fəaliyyət göstərdiyi halda bu göstərici 2011-ci ildə 5 dəfədən çox artaraq 11546 təşkil etmişdir. Hindistanda həyat sığortasının sürətli inkişafı özünü ÜDM-dəki payında da əks etdirmişdir. Belə ki, bu göstərici 2002-ci ildə 2.15% səviyyəsində olduğu halda 2010-cu ildə 4.6% səviyyəsinə çatmışdır. Bu göstəricinin on il ərzində iki dəfədən çox artmasında sığorta sektorunun inkişafı ilə yanaşı əhalinin gəlirlərinin artması da böyük paya sahib olmuşdur.

Hindistanda həyat sığortası sektoru liberallaşdıqdan sonra onun inkişafını əsasən iki dövrə bölmək olar. Birinci dövr 2000-2011-ci illəri əhatə edir və sürətli artım dövrü hesab edilir. Bu dövrdə sığorta ödənişlərinə görə illik artım orta hesabla 31% təşkil etmişdir ki, bu da çox yüksək göstərici hesab edilir. Lakin ikinci dövrdə hansı ki, 2011-2015-ci illəri əhatə edir, sığorta ödənişlərinin illik artım göstəricisi dəfələrlə azalmış və 2% təşkil etmişdir [11]. İllik artımın belə sürətlə azalması sığorta sektorunun inkişafının kəskin zəifləməsi kimi başa düşülməməlidir. Ona görə ki, ilk dövrlərdə müşahidə edilən sürətli artım uzun illər sərfəli həyat sığortası xidmətindən məhrum olmuş bazarda təklifin mövcud olmuş tələbə uyğunlaşması mərhələsi idi və əhali sürətlə həyat sığortası müqavilələri imzalayırdı. Bazarda tələblə təklif öz yerini tutduqdan sonra isə həyat sığortası ödənişlərinin azalması təbii haldır. Lakin sığorta sektorunun liberallaşdırılmasına və tələblə təklifin uyğunlaşmasına baxmayaraq 2014-cü ildə Hindistan əhalisinin 80%-ə qədəri həyat sığortasına malik deyildi [15]. Bu isə Hindistanda həyat sığortası sektorunun beynəlxalq standartlardan aşağı olması və eyni zamanda

bazarda geniş biznes imkanlarının mövcud olmasını göstərir.

Göründüyü kimi Hindistanda həyat sığortası özünəməxsus inkişaf yolu keçmiş və iqtisadiyyatda payı sürətlə artmışdır. Ümumiyyətlə Hindistan kimi böyük əhaliyə malik olan dövlətlər üçün həyat sığortasının inkişaf etdirilməsi sosial ehtiyaclar baxımından çox vacib məsələlərdən biridir. Bu sektorun sürətli inkişafına təkan verən əsas məqam isə bazarın liberallaşdırılması olmuşdur. Bunun nəticəsində böyük bazarın özəl şirkətlərə açılması azad rəqabətin aparılmasına, yeni və daha sərfəli xidmətlərin təklif edilməsinə səbəb olmuşdur. Azad bazarın formalaşdırılması ilə yanaşı eyni zamanda Hindistan hökuməti xarici şirkətlərin daxili bazara vura biləcəyi zərərin qarşısının alınması məqsədilə də qanunvericilikdə müvafiq dəyişikliklər həyata keçirmişdir. Həyata keçirilən həyat sığortası siyasətinin əsas cəhətlərindən biri isə regionlarda, həyat səviyyəsinin daha aşağı olduğu ərazilərdə sığorta xidmətlərinin yayılması və ehtiyacı olan əhalinin bu xidmətlərlə təmin edilməsi olmuşdur. Həyata keçirilmiş uğurlu tədbirlər nəticəsində həyat sığortası sürətlə inkişaf etsə də, hələ də əhalinin böyük hissəsi həyat sığortasına malik deyildir. Bu baxımdan deyə bilərik ki, Hindistan hökuməti üçün bu sahədə görüləcək işlər çoxdur və özəl şirkətlər üçün hələ də kəşf edilməmiş böyük bazar seqmenti mövcuddur.

NƏTİCƏ

Həyat sığortası müasir iqtisadi münasibətlər sistemində böyük rola malikdir. Bunun nəticəsidir ki, bu sahədə təcrübəsini nəzərdən keçirdiyimiz dövlətlərdə həyat sığortası qədim köklərə malik olmaqla yanaşı iqtisadiyyatda böyük paya sahibdir. Zamanla həyat sığortası öz xarakterini və iqtisadiyyatda tutduğu mövqeyini dəyişərək daha geniş bir sahəyə çevrilmişdir. Həyat sığortasının istər maliyyə bazarlarının inkişaf etdirilməsi, istər iqtisadiyyatın kapitallaşdırılması, istərsə də əhalinin sosial ehtiyaclarının ödənilməsi baxımından geniş imkanlara malik olması dövlətlərin bu sektorun inkişafına böyük əhəmiyyət verməsinə səbəb olmuşdur. Nəticədə bu sektorun payı sürətlə artmış və ən etibarlı maliyyə instrumentlərindən birinə çevrilmişdir. Buna görə də Azərbaycanda da bu sektorun inkişaf etdirilməsi vacibdir və bu sahədə böyük təcrübəyə malik olan dövlətlərin təcrübəsinin nəzərə alınması və bunun əsasında həyat sığortası strategiyasının yaradılması əhəmiyyətlidir.

ƏDƏBİYYAT SİYAHISI

1. Murphy, Sharon. "Life Insurance in the United States through World War I". EH.Net Encyclopedia., 254 p.
2. Murphy, Sharon. "Life Insurance in the United States through World War I". EH.Net Encyclopedia, edited by Robert Whaples. August 14, 2002. http://eh.net/encyclopedia/article/murphy.life.insurance.us.
3. Poterba, James M., The History of Annuities in the United States NBER Working Paper No. w6001, April, 1997, 121 p.
4. Axa Equitable History Axa-Equitable. com. Retrieved from www.axa-equitable.com/axa/history.html
5. Roe, M. Foundations of Corporate Finance: The 1906 Pacification of the Insurance Industry (3ed., Vol. 93). Columbia Law Review Association Inc. doi:www.jstor.org/stable/1123112,1993. 145 p.
6. Abbasov A.B, Abbasov S.A. Maliyyə biznesi. Dərslik. Bakı; İqtisad Universiteti nəşriyyatı, 2014, 356 səh.
7. Flow of Funds Accounts of the United States. Federal Reserve statistics, 2013, 255 p.
8. Ronald K., Holt., Rinehart. The Life Insurance Game. New York, 1985. pages 186-187
9. Robert C.E. The Operation Of The Life Assurance Act 1774 (U .K.) In Relation To The Insurance Of Buildings In England And Australia. December, 1983, p. 54
10. P. S. Palande., R. S. Shah., M. L. Lunawat. Insurance in India: Changing Policies and Emerging Opportunities. Response books, 2003. p. 65
11. Tapas K.P., Debashis A. The Life Insurance Industry in India: Current State and Efficiency, 98 p.
12. Banerjee S.C. The Unrepealed General Acts of the Governor General in Council with Chronological Table. From Act No VI of 1909 to Act No VIII of 1913. Superintendent Government Printing, 1914, p. 198
13. Kaoru T., Biresh K. Evaluating cost efficiency and returns to scale in the Life Insurance Corporation of India using data envelopment analysis. Volume 39, Issue 4, December 2005, Pages 261–285.
14. Arnika S., Sarika T. Indian Life Insurance Industry – The Changing Trends. Researchers world, 2012. p. 102

15. Sukhvinder S. Impact of Privatization Policy and FDI on Life Insurance Corporation. EduPedia Publications Ltd, Sep 3 2014., p. 65

Гусейнов Н.Г.
Диссертант , Институт Экономики НАНА

Мировой опыт страхования жизни

Резюме

Цель – исследование основных особенностей мирового опыта страхования жизни в современных экономических условиях

Методология – сравнительный и аналитический анализ, системный подход

Результаты – проанализирован передовой мировой опыт по проблеме совершенствованию страхования жизни , а также определены основные направления его применения в нашей стране

Ключевые слова: *страхование, частный сектор, рыночная конкуренция, конкурентоспособность, показатель конкурентоспособность, народная хозяйства, экономическое регулирование, экономические ресурсы.*

Huseynov N. H.
Dissertant, Institute of Eonomy, ANAS

World experience of life insurance

Abstract

Purpose of the research: Investigating the main features of world experience in life insurance in modern economic conditions

Methodology – comparative analysis, systematic approach

Findings: advanced world experience on the issues of improving life insurance has been analyzed and at the same time, their application has been determined in our country.

Key words: *insurance, system, private sector, market competition, competitiveness, indicator of competitiveness, national economy , economic regulation, economic resource*.

Daxil olub: 11. 05.2017

Rəy verib: AMEA İqtisadiyyat Institutunun *"Maliyyə, pul-kredit siyasəti"* şöbəsinin müdiri Paşa T.